AMEA Riyaziyyat və Mexanika İnstitutunun

“Hesablama riyaziyyatı və informatika” şöbəsinin 2018-cı ilin I yarım ili üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında

H E S A B A T I

Hesabat dövrü ərzində “Hesablama riyaziyyatı və informatika” şöbəsində “İdarə olunan traektoriyaların üç ölçülü vəziyyətlər fəzasına ekran inikası üçün proqram kompleksinin yaradılmasının metodoloji əsaslarının işlənməsi.” mövzusu üzrə elmi tədqiqat işləri aparılmış və 4 iş yerinə yetirilmişdir.

Şöbənin 13 əməkdaşı var. Onlardan “4” nəfər fəlsəfə doktoru, “7” nəfər proqramçı mühəndis, “2” nəfər isə laborantdır. Şöbənin elmlər doktoru hazırlığı üzrə iki doktorantı var.

Şöbədə həftənin hər çərşənbə günləri (11:00) müntəzəm olaraq daxili elmi seminarları keçirilir. Həftənin çərşənbə axşamları və cümə axşamları İnstitutun “Qeyri-harmonik analiz” şöbəsi ilə birlikdə “Freym nəzəriyyəsi-veyvlet analizin seysmologiyada və digər sahələrdə siqnalların emalına tətbiqi” proqramı çərçıvəsində müntəzəm seminarlar keçirilir.

Şöbə əməkdaşları tərəfindən 1 elmi iş impakt faktorlu elmi jurnalda çap olunmuşdur (A.G.Nagiev,V.V. Sadikhov, H.A.Nagiev. The Problem of Aperture Delay in Digital Measurement Systems and its Analytic Solution by the Matrix Exponential Method// Measurement Techniques» Springer USA- 2017, Volume 60, Issue 9, pp 874–880. IF=0.29). Bir məqalə Rusiyanın nüfuzlu jurnalına nəşr üçün təqdim olunmuş («Журнал технической физики») və bir məqalə qəbul olunmuşdur. («Теоретические основы химической технологии»). Bununla bərabər elmi işçi Aynurə Cəfərova tərəfindən hazırlanmış “Orthogonality relation for the Charlier polynomials with respect to the continuous measure” adlı məqalə “Journal of Baku Engineering University” jurnalına nəşr üçün qəbul edilmişdir.

21-24 May 2018-ci il Bakıda Xəzər Universitetində keçirilmiş “Operators, Functions, and Systems of Mathematical Physics Conference” Beynəlxalq konfransında «Решение алгебраической проблемы получения матричной экспоненты в задаче учета временных сдвигов в цифровых каналах измерения / А.Г.Нагиев, В.В.Садыхов, Г.А.Нагиев» adlı tezis ilə iştirak edilmişdir.

11-13 May 2018-ci il Türkiyədə keçirilmiş Beynəlxalq “International Conference on Mathematical Advances and Applications (ICOMAA2018)” Konfransına elmi işçi Aynurə Cəfərova “On the superposition of stationary states of the q-deformed quantum oscillator” adlı tezis ilə iştirak edilmişdir.

13-15 Sentyabr 2018-ci il Bakıda keçiriləcək “Technology, Culture and International Stability - 18th TECIS 2018” beynəlxalq konfransına iştirak üçün tezis göndərilmişdir.

Şöbənin əməkdaşları tərəfindən təqdim olunmuş “Qeyri-xətti dinamik obyektlərin harmonik və impulsiv idarəsinin təsirləri şəraitində optimal idarə metodlarının işlənilməsi (neft emalı prosesləri nümunəsində)” adlı layihə Elmin İnkişafı Fondu “Elm-Təhsil İnteqrasiyası” məqsədli qrant müsabiqəsində qalib olmuşdur (60 min manat). Layihədə iri tonnajlı neft emalı proseslərinin mühüm xassəsi olan qeyri- stasionar idarə təsirlərindən yaranan müsbət effektlərin tədqiqi və müvafiq metodologiyaların işlənməsi qarşıya məqsəd olaraq qoyulmuşdur. Layihənin elmi ideyası qeyri-xəttiliyi, stasionar vəziyyətlərinin çoxsaylılığı ilə seçilən sənaye miqyaslı dinamik sistemlərdə periodik rejimlərdən istifadə hesabına optimal idarə təsirləri sinfinin xeyli genişləndirməyin mümkünlüyüdür. Hal hazırda layihə üzərində iş başlanmışdır. Layihənin yerinə yetirilməsi nəticəsində Respublikamızın neft emalı sənayesində mühüm iqtisadi əhəmiyyəti olan neft mənşəli karbohidrogenlər istehsalının effektivliyinin yuksəldilməsi gözlənilir.

Şöbədə həftənin bütün günləri bakalavr təhsil proqramı üzrə ADNSU – nin “Tətbiqi riyaziyyat” fakultəsinin 19 tələbəsi elm-istehsalat təcrübəsi keçmiş və onların fəaliyyətinə əməkdaşlarımız tərəfindən elmi-praktiki rəhbərlik edilmişdir.

Təcrübəçi tələbələr 3 qrupa bölünmüş və onların təcrübə fəaliyyəti aşağıdakı mövzular üzrə müəyyənləşdirilmişdir:

- Kütləvi xidmət müəssisələrin idarəetmə proqram təminatının struktur sorğularının tərtibi və proqramlaşdırılması;

- Kütləvi xidmət müəssisələrin idarəetmə proqram təminatının MS Visual Studio mühitində həyata keçirilməsi;

- Matlab sistemində riyazi-fizika tənliklərinin həll üsulları.

Şöbə müdiri

t.ü.f.d., dosent **Həsən Nağıyev**